**Oruclu R.Ə.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.78-97**
**UOT: 343.1**

## Konstitusiya nəzarətinin cinayət-prosessual hüququn inkişafında rolu: normativ və institusional yanaşma

**Xülasə:** Məqalədə konstitusiya nəzarətinin cinayət-prosessual hüququn normativ və institusional strukturunun formalaşmasına və inkişafına təsiri kompleks şəkildə araşdırılır. Tədqiqatın əsas məqsədi konstitusiya məhkəmələrinin qərarlarının hüquq mənbəyi kimi tanınmasının hüquqi dövlətin möhkəmləndirilməsi, hüququn aliliyinin təmin edilməsi və insan hüquq və azadlıqlarının effektiv müdafiəsi baxımından əhəmiyyətini elmi əsaslarla ortaya qoymaqdır. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, konstitusiya nəzarəti yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlayan formal mexanizm kimi deyil, eyni zamanda hüquqi metodologiyanın və məhkəmə praktikasının transformasiyasına təsir göstərən funksional institut kimi təhlil edilir. Tədqiqatda müqayisəli hüquqi təhlil, normativ-doktrinal yanaşma və konstitusiya məhkəmələrinin presedent xarakterli qərarlarının öyrənilməsi metodlarından istifadə olunmuşdur. Praktiki baxımdan araşdırma cinayət prosesində prosessual təminatların – o cümlədən həbs, axtarış, müdafiə hüququ və təqsirsizlik prezumpsiyası kimi əsas institutların – konstitusional prinsiplərlə uzlaşdırılmasının hüquqi mexanizmlərini əhatə edir. Nəticə etibarilə əsaslandırılır ki, konstitusiya nəzarəti hüquqi sabitliyin təmin olunmasına, prosessual münasibətlərin legitimliyinin möhkəmləndirilməsinə və hüquq sisteminin metodoloji yenilənməsinə xidmət edən fundamental hüquqi institutdur.

**Açar sözlər:** konstitusiya nəzarəti, cinayət-prosessual hüquq, hüquqi dövlət, normativ mənbə, konstitusiya məhkəməsi, hüququn aliliyi, hüquqi legitimlik, presedent hüququ, hüquqi transformasiya.

**Orujlu R.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.78-97**
**UDC: 343.1**

## The role of constitutional review in the development of criminal procedure law: a normative and institutional approach

**Abstract:** This article provides a comprehensive analysis of the impact of constitutional review on the formation and development of the normative and institutional structure of criminal procedure law. The primary aim of the study is to substantiate the role of recognizing constitutional court decisions as sources of law in strengthening the rule of law, ensuring the supremacy of law,

♦ **Oruclu Rüstəm Əfqan oğlu** - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin doktorantı (Azərbaycan). E-mail: orudzhlu@list.ru
♦ **Orujlu Rustam Afgan oglu** - PhD candidate at the Centre of Forensic Expertise, Ministry of Justice of the Republic of Azerbaijan. E-mail: orudzhlu@list.ru

and safeguarding fundamental human rights. The scholarly novelty of the research lies in conceptualizing constitutional review not merely as a formal mechanism for assessing the constitutionality of legal norms, but as a functional institution that actively influences the transformation of legal methodology and judicial practice. The study employs comparative legal analysis, normative-doctrinal methods, and the examination of constitutional court precedents. From a practical perspective, the research focuses on aligning procedural safeguards within criminal proceedings - such as detention, search, the right to defense, and the presumption of innocence - with constitutional principles. The findings demonstrate that constitutional review serves not only as a guarantor of legal stability but also as a dynamic instrument for methodological renewal and institutional legitimacy within the criminal justice system.

**Keywords:** constitutional review, criminal procedure law, rule of law, legal state, source of law, constitutional court, normative authority, legal legitimacy, judicial precedent, legal transformation.

Müasir hüquqi dövlət modelində cinayət-prosessual hüquq yalnız cinayət təqibinin prosedur qaydalarını müəyyən edən normativ sahə kimi deyil, eyni zamanda Konstitusiyada təsbit olunmuş fundamental hüquq və azadlıqların reallaşdırılmasının əsas institusional mexanizmlərindən biri kimi çıxış edir. Cinayət prosesinin bütün mərhələlərində – ibtidai istintaqdan məhkəmə araşdırmasına qədər – dövlətin səlahiyyətlərinin həyata keçirilməsi ilə fərdin hüquqi müdafiə maraqları arasında tarazlığın qorunması hüquqi sistemin legitimliyini müəyyən edən əsas meyarlardan hesab olunur. Bu tarazlığın təmin edilməsində konstitusiya nəzarəti institutu xüsusi əhəmiyyət kəsb edir, çünki məhz bu institut vasitəsilə cinayət-prosessual qanunvericiliyin normativ məzmunu və tətbiq mexanizmləri Konstitusiyanın ali hüquqi prinsipləri ilə uzlaşdırılır. Bununla belə konstitusiya nəzarətinin cinayət-prosessual hüquqa təsiri təkcə normativ aktların konstitusiyaya uyğunluğunun yoxlanılması ilə məhdudlaşmır, həm də hüquqi metodologiyanın, məhkəmə təcrübəsinin və prosessual institutların inkişafına yönəlmiş kompleks normativ-institusional proses kimi çıxış edir. Bu baxımdan konstitusiya nəzarətinin cinayət-prosessual hüququn formalaşması və inkişafındakı rolunun elmi-nəzəri və praktiki aspektlərdən təhlili aktual və zəruri tədqiqat istiqaməti kimi ön plana çıxır.

Cinayət-prosessual hüquq yalnız formal hüquqi prosedurların və ya normativ göstərişlərin cəmi kimi deyil, əksinə dövlətin cinayət siyasətinin hüquqi müstəvidə həyata keçirilməsi üçün nəzərdə tutulan kompleks və funksional hüquq sahəsi kimi qiymətləndirilməlidir [15, s. 35-40]. Bu sahə cinayət təqibinin və məhkəmə fəaliyyətinin təşkilati əsaslarını müəyyən etməklə yanaşı, eyni zamanda insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş institusional mexanizmlərin formalaşmasına xidmət edir. Cinayət-prosessual hüququn hüquqi xarakteri onun cinayət hüququ ilə yanaşı, konstitusiya hüququ ilə də sıx normativ və funksional bağlılıqda olduğunu göstərir. Bu qarşılıqlı bağlılıq çərçivəsində hüquqi dövlətin əsas prinsiplərinin və hüququn aliliyinin real təminatı baxımından cinayət-prosessual sahədə tətbiq edilən hüquqi aktların Konstitusiyaya uyğunluğunun qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Məhz bu mərhələdə konstitusiya nəzarəti institutu hüquqi dövlətin institusional mexanizminin ayrılmaz elementi kimi çıxış edərək, cinayət-prosessual hüququn Konstitusiyanın fundamental prinsipləri əsasında formalaşmasını və inkişafını təmin edən normativ və təşkilati mexanizm funksiyasını yerinə yetirir. Hüquqi dövlət modelində hüquq sisteminin daxili bütövlüyü və normativ sabitliyi yalnız o halda mümkün olur ki, müxtəlif hüquq sahələrində qüvvədə olan normativ aktlar,

o cümlədən cinayət-prosessual qanunvericilik Konstitusiyanın ali hüquqi qüvvəsinə və dəyərlər sisteminə uyğun şəkildə tətbiq edilsin. Bu baxımdan, konstitusiya nəzarətinin cinayət-prosessual sahədə həyata keçirilməsi hüquqi normaların sistemli və legitim şəkildə fəaliyyət göstərməsini təmin etməklə yanaşı, fərdin hüquq və azadlıqlarının səmərəli müdafiəsi üçün etibarlı hüquqi zəmin formalaşdırır.

Ə.H. Rzayevin də müəllifi olduğu "Dövlət idarəetməsi: nəzəriyyə və praktika" adlı əsərində qeyd etdiyi kimi: "idarəetmə prosesində, o cümlədən nəzarət fəaliyyətində əsas subyekt qismində – dövlət, ictimai təşkilat, kollektiv və vətəndaş çıxış edir. Hüquqi dövlət quruculuğu və hakimiyyətlərin bölgüsü prinsiplərinin tətbiq edilməsi, azad vətəndaş cəmiyyətinin, hüquqi dövlətin yaradılmasında dövlət hakimiyyətinin üzərinə düşən başlıca vəzifələrdən biri Əsas Qanunun – Konstitusiyanın aliliyini təmin etməkdir. Konstitusiya qanunvericilik sisteminin əsası olmaqla, ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Konstitusiyanın aliliyinin təminatı, onun müdafiəsi və ona əməl edilməsi Konstitusiya nəzarətinin təşkilindən asılıdır. Konstitusiyanəzarəti institutu hüquqi dövlət statusu daşıyan hər bir demokratik ölkənin mühüm atributlarındna biridir. Qanunların, qanun qüvvəli aktlarınkonstitusiyaya uyğunluğunun, cəmiyyətdə və dövlətdə konstitusiyanın aliliyi və düzgün qüvvəsinin təmin edilməsi üçün bütün hakimiyyət fəaliyyətinə Konstitusiya nəzarəti institutunun mühüm əhəmiyyəti vardır" [9, s. 298].

Konstitusiya nəzarətinin hüquqi və praktiki əhəmiyyəti təkcə onun nəzəri əsasları ilə müəyyənləşmir, eyni zamanda bu funksiyanı həyata keçirən ixtisaslaşmış orqanın - Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi - rolunun dəqiq müəyyən olunması və səlahiyyətlərinin səmərəli icrasından asılıdır. Konstitusiya nəzarəti institutunun hüquqi reallaşmasında Konstitusiya Məhkəməsinin ixtisaslaşmış funksiyası xüsusi önəm daşıyır. Z.A. Əsgərovda müəllifi olduğu "Konstitusiya hüququ" dərsliyində bu məsələyə diqqət ayıraraq qeyd etmişdir ki: "Konstitusiyada səlahiyyəti, fəaliyyət istiqamətləri daha ətraflı şəkildə təsbit olunmuş yeganə məhkəmə hakimiyyəti orqanı Azərbaycan Respulikasının Konstitusiya Məhkəməsidir. Konstitusiyada bu məhkəmə orqanın səlahiyyətlərinin dəqiq tənzimlənməsi, sadəcə, onun əhəmiyyətindən irəli gəlmir. Konstitusiyada bu yolla konstitusiya nəzarəti institutu tənzim olunur. Başqa sözlə, Konstitusiya Məhkəməsi vasitəsilə konstitusiya nəzarəti həyata keçirilir. Konstitusiya nəzarəti Azərbaycan Respublikasının hüquq sistemində yeni institutdur və hələlik ətraflı tədqiq olunmamışdır." [8, s. 453].

Konstitusiya Məhkəməsinin konstitusiya nəzarətindəki ixtisaslaşmış rolu təkcə normativ aktların Konstitusiyaya uyğunluğunu abstrakt və ümumi səviyyədə qiymətləndirməklə məhdudlaşmır. Bu orqan həmçinin cinayət-prosessual münasibətlərdə tətbiq olunan bütün hüquqi mexanizmlərin - prosessual məcburiyyət tədbirlərindən tutmuş sübutların toplanması üsullarına və prosessual tərəflərin qarşılıqlı münasibətlərinə qədər - Konstitusiyanın ali prinsiplərinə uyğun şəkildə həyata keçirilməsini təmin edir. Konstitusiya Məhkəməsinin belə geniş funksional rolu onu yalnız hüquqi dövlətin normativ-siyasi əsaslarını qoruyan bir institut kimi təqdim etmir. Eyni zamanda bu rol cinayət ədalət mühakiməsinin legitimliyinin təmin olunması, məhkəmə hakimiyyətinin neytrallığı və müstəqilliyinin qorunması, həmçinin insan hüquqlarının effektiv müdafiəsi baxımından da həlledici əhəmiyyət kəsb edir. Konstitusiya nəzarətinin bu aspekti, məhkəmə qərarlarının hüquqi əsaslı və Konstitusiyaya uyğun olmasını təmin etməklə, ədalətin icrasına yüksək səviyyədə hüquqi zəmanət verir və dövlətin qanunvericilik sistemindəki normativ intizamı gücləndirir. Nəticə etibarı ilə Konstitusiya Məhkəməsi yalnız qanunların konstitusiyaya uyğunluğunu yoxlayan məhkəmə orqanı deyil, həm də cinayət-prosessual və digər hüquqi

münasibətlərdə hüququn üstünlüyünü təmin edən, dövlət və vətəndaş maraqlarını balanslaşdıran, eləcə də insan hüquqlarının müdafiəsini sistemli şəkildə reallaşdıran ixtisaslaşmış institut kimi çıxış edir.

Cinayət prosesində həyata keçirilən prosessual məcburiyyət tədbirləri (məsələn, həbs, axtarış və s.), sübutların toplanması üsulları və mümkünlüyü, prosessual tərəflərin hüquq və vəzifələri konstitusion hüquq normaları ilə uzlaşdırılmalıdır [16, s. 175-180]. Bu uyğunluq sadəcə formal və ya texniki xarakter daşımır; o, hüququn nəzəri və siyasi əsaslarına söykənir və insan hüquqlarının səmərəli müdafiəsi, məhkəmə hakimiyyətinin obyektivliyi və prosessual legitimliyin qorunması baxımından həyati əhəmiyyət kəsb edir. Əgər bu prinsip pozularsa, prosessual məcburiyyət tədbirlərindən sui-istifadə üçün hüquqi imkanlar yarana bilər ki, nəticədə hüquq mühafizə orqanlarının fəaliyyətində Konstitusiya ilə müəyyən edilmiş sərhədlərin aşılması və vətəndaşların hüquq və azadlıqlarının pozulması halları baş verə bilər.

Bu mənada konstitusiya nəzarəti ilə cinayət-prosessual hüququn qarşılıqlı münasibətlərinin normativ, institusional və funksional aspektlərdə kompleks tədqiqi hüquqi dövlət prinsiplərinin praktikada tətbiqi üçün mühüm elmi-nəzəri əhəmiyyət kəsb edir. Bu yanaşma sadəcə normativ aktların konstitusiyaya uyğunluğunun yoxlanılması ilə məhdudlaşmır. Əslində, burada söhbət daha fundamental bir məsələdən - cinayət-prosessual mexanizmlərin bütövlükdə Konstitusiyanın ruhuna və məzmununa uyğun qurulması zərurətindən gedir [15, s. 30-33]. Bu cür sistemli yanaşma hüquqi harmoniyanın, sabitliyin və institusional səmərəliliyin təmin olunması baxımından xüsusi önəm daşıyır.

Ümumilikdə, konstitusiya nəzarəti institutu cinayət-prosessual hüquq sistemində hüquqi dövlətin sütunlarını möhkəmləndirməklə yanaşı, həm də hüquqi təhlükəsizliyin təminatına, ədalətli mühakimə prinsiplərinin reallaşdırılmasına və fərdin fundamental hüquqlarının effektiv müdafiəsinə xidmət edir. Bu baxımdan, konstitusiya nəzarəti ilə cinayət-prosessual hüququn qarşılıqlı münasibətlərinin normativ və praktik müstəvidə tədqiqi, müasir qanunvericilik siyasətində hüquq sisteminin dinamik inkişafını şərtləndirən strateji bir elmi istiqamət kimi qəbul edilməlidir.

Cinayət-prosessual hüquq ilə konstitusiya nəzarəti institutu arasındakı qarşılıqlı əlaqənin nəzəri təhlili zamanı fundamental məsələlərdən biri Konstitusiyanın ali hüquqi qüvvəsinin cinayət-prosessual normaların daxili strukturuna və funksional mexanizmlərinə nüfuz etmə vasitələrini müəyyənləşdirməkdir. Bu münasibətlər sadəcə normativ uyğunluğun formal tərəfi ilə məhdudlaşmır; əksinə, konstitusion ideya və prinsiplərin cinayət-prosessual müstəviyə transformasiyasını, habelə sahəvi tənzimləmənin konstitusional dəyərlərlə harmonizasiyasını tələb edən sistemli bir yanaşmanı zəruri edir.

Yuxarıda da qeyd olunduğu kimi, konstitusiya nəzarəti institutu yalnız normativ aktların qanuniliyini yoxlayan bir mexanizm deyil, həm də insan hüquq və azadlıqlarının müdafiəsi müstəvisində "preventiv" və "korrektiv" funksiyaları icra edən fundamental bir təsisatdır. Bu çərçivədə, konstitusiya nəzarəti orqanlarının qərarları sadəcə hüquqtətbiqedici aktlar deyil, həm də hüququn mənbəyi və "interpretativ" (təfsiredici) komponenti kimi çıxış edir. Xüsusilə cinayət mühakimə icraatında müdafiə hüququ, təqsirsizlik prezumpsiyası və məhkəmə təminatı kimi fundamental prinsiplər Konstitusiyanın maddi məzmunu ilə qırılmaz vəhdət təşkil edir. Bu prinsiplərin praktikada səmərəli reallaşdırılması birbaşa konstitusiya nəzarəti mexanizminin funksionallığından asılıdır.

Eyni zamanda, konstitusiya nəzarəti institutu ilə cinayət-prosessual hüquq arasındakı qarşılıqlı münasibətlər təkcə vertikal müstəvidə - yəni normativ iyerarxiya çərçivəsində ali qüvvəyə malik

aktın aşağı səviyyəli normalar üzərindəki nəzarət funksiyası ilə məhdudlaşmır. Bu münasibətlər həm də horizontal səviyyədə - hüquqi ideyaların transformasiyası, fundamental dəyərlərin yayılması və hüquq şüurunun təkamülü prizmasından qarşılıqlı təsirə əsaslanır. Belə bir yanaşma sübut edir ki, cinayət-prosessual tənzimləmələrin konstitusion prinsiplərlə harmonizasiyası sadəcə hüquqi zərurət deyil; bu, bütövlükdə hüquq sisteminin daxili harmoniyasını, məhkəmə hakimiyyətinin legitimliyini və hüququn aliliyini şərtləndirən fundamental amildir.

Məsələn, cinayət-prosessual hüququn spesifik təsisatları olan həbs qətimkan tədbiri, axtarış və götürmə kimi fərdi toxunulmazlığa müdaxilə xarakterli prosessual hərəkətlərin hüquqi əsasları və tətbiq meyarları yalnız sahəvi normalarla məhdudlaşmamalı, həm də konstitusion prinsiplərlə şərtləndirilməlidir. Sözügedən institutların hüquqi çərçivəsi formalaşdırılarkən ədalətli məhkəmə araşdırması, şəxsi toxunulmazlıq, hüquqi müdafiə təminatı və müdaxilənin proporsionallığı (mütənasibliyi) kimi fundamental prinsiplər rəhbər tutulmalıdır. Bu yanaşma cinayət mühakimə icraatında normativ tələblər ilə konstitusion dəyərlər arasında dinamik və davamlı balansın bərqərar olunmasını zəruri edir.

Digər tərəfdən, konstitusiya nəzarəti ilə cinayət-prosessual hüquq arasındakı qarşılıqlı təsir təkcə normativ və institusional müstəvilərdə deyil, həm də hüquqi metodologiya və "interpretativ" yanaşmalar səviyyəsində təzahür edir. Konstitusiya məhkəmələrinin qərarları hüquqyaradıcılığı ilə hüquqtətbiqi arasındakı sərhədləri nəzəri cəhətdən yenidən müəyyənləşdirərək, cinayət-prosessual hüququn konkret institutlarına yeni hüquqi məna qazandırır və onların tətbiq mexanizmlərini konstitusional reallıqlara adaptasiya edir. Bu proses hüququn inkişafında "konstitusionalizasiya" kimi xarakterizə olunan yeni mərhələyə keçidi şərtləndirir və cinayət-prosessual münasibətlərin daha dərin konstitusion əsaslarla tənzimlənməsi zərurətini aktuallaşdırır.

Bütövlükdə, bu qarşılıqlı əlaqənin elmi-nəzəri və praktiki müstəvidə dərindən tədqiqi hüquqi dövlət konsepsiyasının təməl sütunları olan hüququn aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi, institusional məsuliyyət və hüquqi sabitlik prinsiplərinin gerçəkləşdirilməsi baxımından fundamental əhəmiyyət kəsb edir. Bu yanaşma konstitusiya nəzarəti institutunun yalnız hüquqi nəzarət mexanizmi deyil, həm də hüquqi şüurun və təfəkkürün transformasiyasını təmin edən strateji bir instrument kimi rolunu daha da möhkəmləndirir.

Beləliklə, cinayət-prosessual hüququn normativ strukturunun və institusional mexanizmlərinin Konstitusiyanın fundamental prinsipləri ilə harmonizasiyası yalnız hüquqi vəhdətin təmini baxımından deyil, həm də Konstitusiyanın ali hüquqi qüvvəsinin real müstəvidə reallaşdırılmasının fundamental şərti kimi çıxış edir. Bu uzlaşma hüquq sisteminin daxili inteqrasiyasını möhkəmləndirməklə yanaşı, normativ iyerarxiya daxilində Konstitusiyanın müstəsna statusunu praktik səviyyədə təsdiqləyir. Məhz bu mərhələdə konstitusional aliliyin təminatı, hüquq sisteminin legitimlik əsaslarının qorunması və məsuliyyətin təməl mənbəyi kimi konstitusiya normalarının funksional rolu daha da aktuallaşır. M.V. Baqlayında qeyd etdiyi kimi, "konstitusiyanın pozulmasına görə məsuliyyətin əsasları, konstitusiyanın və qanunların birbaşa qüvvəsinin təmin edilməsi, hüquqi aktlar arasında uyğunsuzluğun aradan qaldırılması məsələləri, adətən, birbaşa konstitusiyanın özündə müəyyən edilir. Bu məqsədə xidmət edən əsas prinsip konstitusiyanın aliliyidir. Bu prinsip, konstitusiyaya zidd olan hər hansı hüquqi aktın legitimliyini istisna edir. Konstitusiyanın aliliyinin təmin olunması üçün səlahiyyətli dövlət orqanlarına – konstitusiyanın qarantı kimi çıxış edən dövlət başçısına, hökumətə və məhkəmə orqanlarına xüsusi səlahiyyətlər verilir. Bu sahədə mühüm rol konstitusiya nəzarətinə məxsusdur; o, hüquqi aktların ölkə konstitusiyasına uyğunluğunu təmin edir. Bir sıra dövlətlərdə hüquqi məkanın vahidliyini

qorumaq məqsədilə prokurorluq, insan hüquqları üzrə müvəkkil (ombudsman), konstitusiyanın mühafizəsi ilə məşğul olan xüsusi orqanlar təsis olunmuşdur. Bu orqanların səlahiyyətləri konstitusiyanın və qanunların qorunması mexanizmini təşkil edir və dövlət orqanlarına, vəzifəli şəxslərə qarşı müəyyən təsir tədbirlərinin tətbiq olunmasını nəzərdə tutur. Bu səlahiyyətlər ümumilikdə vətəndaş hüquqlarının müdafiəsinin, konstitusiya quruluşunun və qanunçuluğun qorunmasının, habelə hakimiyyətin sui-istifadəsindən, səlahiyyət həddinin aşılmasından və hakimiyyətin uzurpasiya olunması imkanlarından müdafiənin təminatına xidmət edir. Qeyd edilməlidir ki, bu məsuliyyət, konstitusiya hüququ normalarının pozulmasına görə yaranan məsuliyyətdən fərqlidir. Belə pozuntulara görə vətəndaşlar və vəzifəli şəxslər digər hüquq sahələri – cinayət, inzibati və ya mülki hüquq çərçivəsində məsuliyyət daşıyırlar.” [12, s. 46].

Bununla belə, hüququn reallaşdırılması prosesində prosessual-hüquqi münasibətlər hüquqi tənzimləmənin funksional və institusional aspektlərini təcəssüm etdirən fundamental elementlərdən biri kimi çıxış edir. Sözügedən münasibətlər yalnız ənənəvi hüquq sahələri - yəni konstitusiya, mülki, kommersiya, inzibati və cinayət-prosessual hüquq müstəviləri ilə məhdudlaşmır. Prosessual-hüquqi tənzimləmə daha geniş spektri əhatə edərək, mediasiya və arbitraj kimi alternativ mübahisə həlli mexanizmlərini, ibtidai istintaq mərhələsindəki prosessual qarşılıqlı əlaqələri, habelə məhkəmə qərarlarının icrası və cəzaların tətbiqi ilə bağlı prosedur münasibətləri də özündə ehtiva edir.

Sözügedən prosessual-hüquqi münasibətlər hüququn mühafizə funksiyasının dinamik təzahürü olmaqla, hüquqi statusların və vəziyyətlərin legitim əsaslar üzərində təşəkkül tapmasını, transformasiyasını və xitamını şərtləndirən fundamental normativ çərçivəni müəyyən edir. Bu kateqoriyalı münasibətlər yalnız hüquq sisteminin funksional işləkliyini təmin etmir, həm də hüquqi məsuliyyətin labüdlüyü prinsipinin, eləcə də hüquq subyektlərinin qarşılıqlı subyektiv hüquq və hüquqi vəzifələrinin mütənasib bölgüsünün təməl sarsılmazlığını təşkil edir. Hüquqi determinizm və qanunçuluq imperativliyi baxımından, bu münasibətlər sistemində yol verilən hər hansı prosessual deformasiya və ya pozuntu birbaşa 'hüquqi qeyri-müəyyənlik' mühiti yaradır ki, bu da son nəticədə hüquqi aktların və qərarların legitimliyini fundamental səviyyədə sarsıdan ciddi risk amilinə çevrilir.

Məhz bu fundamental səbəblərdən, prosessual-hüquqi normaların pozulması hallarına qarşı hər hansı dərəcədə “hüquqi tolerantlıq” nümayiş etdirmək prinsipcə yolverilməzdir. Belə pozuntular hüququn aliliyi doktrinasının zəifləməsinə və ədalətli mühakimənin legitimlik əsaslarının zədələnməsinə birbaşa səbəb olur. Hüquq sisteminin özünütənzimləyici və “korrektiv” mexanizmləri çərçivəsində, sözügedən pozuntular qəbul edilmiş prosessual aktların, o cümlədən məhkəmə qərarlarının yuxarı instansiya məhkəmələri tərəfindən nəzərdən keçirilməsi, şikayət və ya protesti predmeti olması üçün kifayət edən mütləq hüquqi əsas hesab edilməlidir. Bu cür prosessual filtrasiya imkanları hüquqi prosesin obyektivliyinin təmin edilməsi, kazuistik səhvlərin aradan qaldırılması və pozulmuş ədalət balansının bərpası baxımından böyük strateji əhəmiyyət daşıyır.

O da vurğulanmalıdır ki, prosessual-hüquqi münasibətlər mütləq qaydada müvafiq hüquqi formaya malik sənədlər vasitəsilə rəsmiləşdirilir. Bu xüsusiyyət sözügedən münasibətlərin retrospektiv qaydada - yəni keçmişə nəzər yetirməklə - yenidən təhlil edilməsinə, təftişinə və hüquqi qiymətləndirməyə məruz qalmasına imkan yaradır. Prosessual fəaliyyətin rəsmiləşdirilməsi onun şəffaflığını və hüquqi məsuliyyətin izlənilə bilənliyini təmin edən fundamental təminatlardan biridir. Sənədləşdirilmiş bu münasibətlər prosessual hüququn sabit normativ bazasına söykənməyin zəruriliyini təsdiqləyir, hüquq-mühafizə orqanları və məhkəmələr üçün vahid davranış standartlarını müəyyən edir. Bu müstəvidə, konkret prosessual-hüquqi münasibətləri hüququn tətbiqi zamanı

meydana çıxan potensial ziddiyyətlərin və hüquq pozuntularının aradan qaldırılması üçün səmərəli və sosial baxımdan məqsədəuyğun bir mexanizm kimi nəzərdən keçirmək lazımdır. Bu münasibətlərin məcmusu hüquqi prosesin nizamlı formada təşkili və idarə olunması üçün zəruri olan 'prosessual-hüquqi infrastruktur' anlayışının formalaşmasına zəmin yaradır. Sözügedən infrastruktur hüquqi prosesin davamlılığını, hüquqi müəyyənliyi, tərəflərin bərabər iştirakını və müstəqil məhkəmə hakimiyyətinin səmərəli fəaliyyətini təmin edən kompleks mexanizmlər sistemidir. Beləliklə, prosessual-hüquqi münasibətlərin təhlili və düzgün formalaşdırılması hüququn reallaşdırılmasında yalnız texniki prosedur deyil, həm də institusional legitimliyin ayrılmaz tərkib hissəsidir. Bu münasibətlər təkcə konstitusiya, mülki, inzibati və cinayət-prosessual hüquq sahələrini deyil, həm də mediasiya, arbitraj, ibtidai istintaq və cəzaların icrası ilə bağlı geniş hüquqi sahələri əhatə edir. Məhz bu səbəbdən, prosessual-hüquqi pozuntular heç bir halda yolverilən hesab edilə bilməz. Belə pozuntuların baş verməsi, hüquqi etibarsızlıq prinsipi əsasında, qəbul edilmiş qərarların və məhkəmə hökmlərinin şikayət və ya prokuror protesti vasitəsilə ləğv edilməsi üçün mütləq əsas sayılmalıdır [13, s. 316].

Cinayət mühakimə icraatı müstəvisində yaranan münasibətlərin birbaşa konstitusion prinsiplər rəhbər tutulmaqla nizamlanması, hüquqi dövlət quruculuğununinstitusional əsaslarını möhkəmləndirməklə yanaşı, həm də Konstitusiyanın ali hüquqi qüvvəsinin real hüquq tətbiqi prosesində təzahür etməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Bu baxımdan, konstitusiya nəzarəti institutu sadəcə qanunvericilik aktlarının Konstitusiyaya uyğunluğunu yoxlayan texniki-hüquqi vasitə deyil, bütövlükdə hüquq sisteminin daxili struktur vəhdətini və funksional sabitliyini qoruyan strateji tənzimləmə mexanizmidir.

Müasir hüquq sistemlərində konstitusiya nəzarətinin səmərəli fəaliyyəti təkcə hüquqi sabitliyin qorunması məqsədi ilə məhdudlaşmır, eyni zamanda cinayət-prosessual hüququn normativ, institusional və tətbiqi səviyyələrdə keyfiyyətcə yenilənməsinə və təkmilləşməsinə zəmin yaradır. Konstitusiya məhkəmələrinin qərarları normativ aktların hüquqi qüvvəsini müəyyən etməklə yanaşı, həmin aktların konstitusiya prinsipləri işığında şərh olunması və yeni hüquqi məzmun kəsb etməsi baxımından müstəsna rol oynayır. Bu yanaşma hüququn donmuş deyil, dinamik və dəyişən şərtlərə uyğun inkişaf modelini rəhbər tutaraq, cinayət mühakimə icraatının bütün mərhələlərində - o cümlədən ibtidai istintaq, məhkəməyədək icraat və məhkəmə araşdırması zamanı - məhkəmə nəzarətinin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Eyni zamanda, konstitusiya nəzarətinin institusional müdaxiləsi prosessual müdafiə hüquqlarının effektiv təmin edilməsinə əlavə mexanizmlərin formalaşdırılmasına imkan yaradır və ittiham tərəfinin hüquqi imkanlarının Konstitusiya ilə müəyyən edilmiş sərhədlər daxilində həyata keçirilməsini təmin edir. Bu baxımdan, prosessual qərarların məhkəmə nəzarəti altında yoxlanılması institutunun təkmilləşdirilməsi hüquqi məsuliyyətin qanuniliyi və legitimliyi prinsiplərinə söykənən müasir hüquqi dövlətin formalaşması üçün həlledici əhəmiyyət kəsb edir.

Bundan əlavə, konstitusiya nəzarətinin "presedent" hüququna xas olan normativ-təhlili təsir imkanları hüquqi sistemin sabitliyini pozmadan onun struktur və məzmununda dərin transformasiyaların aparılmasına şərait yaradır. Normativ aktların mətnində formal dəyişiklik olmasa belə, onların hüquqi mahiyyəti Konstitusiya Məhkəmələrinin mövqeləri əsasında təfsir edilərək müasir hüquqi münasibətlərin tələblərinə uyğunlaşdırılır. Nəticədə, hüququn tətbiqində sabitlik və inkişaf eyni zamanda təmin olunur, bu isə hüquqi sistemin çevikliyini artırır və dövlətin demokratik legitimliyinin möhkəmlənməsinə xidmət edir [18, s. 164-166].

Bu baxımdan, konstitusiya nəzarəti yalnız hüquqi normaları qoruyan mexanizm kimi çıxış etmir, eyni zamanda hüquqi sistemin inkişaf trayektoriyasını müəyyənləşdirən, normativ bazanı dövrün tələblərinə uyğun şəkildə formalaşdıran və hüquqi sistemin strateji istiqamətlərini müəyyən edən fundamental institusional platforma rolunu oynayır. Hüquq nəzəriyyəsində bu proses tez-tez "səssiz hüquqi inqilab" - yəni təkamül xarakterli konstitusional transformasiya - kimi qiymətləndirilir ki, bu da konstitusiya nəzarətinin hüquqi və institusional təsirinin dərinliyini və əhəmiyyətini göstərir [14, s. 169-170].

Konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul olunan məhkəmə qərarlarının cinayət-prosessual hüququn tənzimlənməsində rolu hüquq nəzəriyyəsində geniş və aktual müzakirə mövzularından biridir. Əsas fikir mübahisəsi ondan ibarətdir ki, bu qərarlar hüquq mənbəyi statusuna malik ola bilərmi və onların hüquqi təsir qüvvəsi necə müəyyən edilməlidir. Hüquq elmi müstəvisində bu məsələ müxtəlif yanaşmalar çərçivəsində təhlil olunmuş və konstitusiya məhkəmələrinin qərarlarının hüquqi təsir dairəsi barədə fərqli nəzəri mövqelər formalaşmışdır.

Birinci yanaşmaya görə, Konstitusiya Məhkəməsinin qərarları hüququn, o cümlədən cinayət-prosessual hüququn müstəqil və legitim mənbəyi kimi qəbul edilməlidir. Bu baxış konstitusiya məhkəməsinin hüququn inkişafındakı fəal rolunu və onun qərarlarının normayaratma funksiyasını ön plana çıxarır.İkinci yanaşma isə bu qərarların hüquq mənbəyi statusunu qismən tanımaqla yanaşı, onların formal hüquqi qüvvəyə malik olmadığını, əsasən interpretativ və tövsiyəedici xarakter daşıdığını irəli sürür. Üçüncü mövqeyə əsasən isə, Konstitusiya Məhkəməsinin qərarları normativ hüquqi aktlar kimi hüquqi qüvvəyə malik olmadığından, hüquq mənbəyi statusunu qazana bilməz.

Bu fərqli yanaşmalar həm hüququn mənbələri sistemində konstitusiya ədalət mühakiməsinin yerini və funksiyasını müəyyən etməyə xidmət edir, həm də Konstitusiya Məhkəməsinin hüquqi sistemə təsir imkanlarını və institusional rolunu qiymətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Nəticədə, konstitusiya qərarlarının hüquq mənbəyi statusu məsələsi yalnız nəzəri aspektlərlə məhdudlaşmır, eyni zamanda praktiki hüquq tətbiqi üçün də əhəmiyyətlidir. Bu problem cinayət-prosessual hüququn sistemləşdirilməsi, normativ sabitliyin və hüquqi müəyyənliyin təmin olunması kontekstində dərin təhlil tələb edir və hər bir hüquq sistemi üçün spesifik yanaşmalar əsasında qiymətləndirilməlidir [14, s. 233-234].

Fərz edək ki, Konstitusiya Məhkəməsinin cinayət-prosessual hüquq sahəsində qəbul etdiyi qərarların hüquqi statusu ilə bağlı mövcud yanaşmalar real hüquqi praktikanı tam əks etdirmir. Bunun başlıca səbəbi qərarların hüquqi mahiyyətinin vahid və homogen olmamasıdır. Konstitusiya Məhkəməsi müxtəlif hüquqi situasiyalarda funksional və hüquqi xarakteri fərqli olan qərarlar qəbul edir; nəticədə onların hüquqi sistemdəki statusu və təsir gücü də eyni səviyyədə olmur, müxtəlif hüquqi çəkilərə malik olur. Bu xüsusiyyət konstitusiya qərarlarının hüquqi statusunun mürəkkəbliyini və konstitusiya nəzarətinin institusional təsir imkanlarının çoxşaxəliliyini aydın şəkildə nümayiş etdirir.

Bu kontekstdə əsaslı şəkildə belə bir yanaşma irəli sürmək mümkündür ki, Konstitusiya Məhkəməsinin bəzi qərarları hüquq mənbəyi kimi tanınmalı və bu status çərçivəsində tətbiq olunmalıdır, digər qərarlar isə yalnız hüququn tətbiqi səviyyəsində orqan aktları kimi qiymətləndirilməlidir. Xüsusilə, Cinayət-Prosessual Məcəllənin konkret müddəalarının Konstitusiyaya uyğunluğunu müəyyən edən qərarlar hüquq tətbiq edən subyektlər - istintaq orqanları, prokurorlar və məhkəmələr - üçün dəqiq və məcburi davranış qaydalarını müəyyən edir. Belə qərarlar qəbul olunduğu andan hüquqi qüvvəyə malik olur və həmin müddəalara münasibətdə

qanunverici tərəfindən yeni normativ akt qəbul edilənədək, yaxud mövcud normativ akt Konstitusiya Məhkəməsinin mövqeyi ilə ziddiyyət təşkil etmədikcə, müstəqil və tamhüquqlu hüquq mənbəyi statusunu qoruyur.

Digər tərəfdən, Konstitusiya Məhkəməsinin hüquq tətbiq edən subyektlərə ünvanlanmış konkret hüquqi öhdəlik və ya qadağa ehtiva etməyən qərarlarına münasibətdə iki əsas hüquqi vəziyyəti fərqləndirmək zəruridir: “1) əgər Konstitusiya Məhkəməsi mübahisələndirilən normanı Konstitusiyaya uyğun hesab edibsə, bu halda qəbul edilən qərar yalnız normanın konstitusionluğunu təsdiq edən hüququn tətbiqi aktı kimi çıxış edir. Belə qərar yeni hüquqi vəziyyət yaratmır və hüquq tətbiq edən orqanlar üçün hüquqi məcburiyyət doğurmur, sadəcə hüquqi vəziyyətin şərhi və təhlili funksiyasını yerinə yetirir; 2) əgər Konstitusiya Məhkəməsi normanı Konstitusiyaya zidd hesab edibsə, bu qərar artıq analitik və şərhedici xarakter daşımır, əksinə, mübahisələndirilən normanın hüquqi qüvvəsini itirdiyini müəyyən etməklə hüquqi sistemdə bilavasitə nəticə doğuran normativ xarakterli qərar kimi çıxış edir. Bu tip qərarlar hüquq tətbiq edən orqanlar üçün birbaşa məcburi hüquqi nəticələr yaradır və hüquq mənbəyi kimi tətbiq edilməlidir.Belə qərarların icrası yalnız formal-prosedur xarakter daşımır, həm də hüquqi dövlətin əsas prinsiplərindən olan Konstitusiyanın ali hüquqi qüvvəsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir” [14, s. 234].

Konstitusiya Məhkəməsi qanunvericiliyin, o cümlədən Cinayət-Prosessual Məcəllənin konkret normalarının Konstitusiyaya zidd olduğunu müəyyən etdikdə, onun fəaliyyət istiqaməti və hüquqi nəticələrin tətbiq mexanizmi hüquq sistemində kifayət qədər aydın şəkildə tənzimlənmişdir. Belə hallarda, Konstitusiyaya zidd sayılan norma qanunverici tərəfindən müəyyən edilmiş müddət ərzində dəyişdirilməli, həmin norma əsasında qəbul olunmuş qərarlara isə prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq yenidən baxılmalıdır.

Bu yanaşmanın praktik tətbiqinə nümunə olaraq, L.V. Qolovkonun redaktorluğu ilə nəşr olunmuş “Cinayət prosesi kursu” əsərində Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin 21.10.2014-cü il tarixli, 25-P nömrəli qərarı göstərilmişdir. Həmin qərarda Məhkəmə Rusiya Federasiyasının Cinayət-Prosessual Məcəlləsinin 115-ci maddəsinin üçüncü və doqquzuncu hissələrinin konstitusionallığınıqiymətləndirmişdir. Söhbət ilkin istintaq mərhələsində şübhəli, təqsirləndirilən və ya mülki cavabdeh qismində tanınmayan şəxslərin əmlakına həbs qoyulması ilə bağlı hüquqi rejimin tənzimlənməsindən gedir. Konkret olaraq, əmlakın şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayət yolu ilə əldə edildiyi ehtimal edildiyi hallarda, həmin əmlaka üçüncü şəxslər tərəfindən mülkiyyət hüququnun həyata keçirilməsinə müdaxilə edilirdi. Konstitusiya Məhkəməsi belə bir hüquqi vəziyyətin həmin şəxslərin mülkiyyət hüququnun müdafiəsi baxımından adekvat prosedur təminatları ilə müşayiət olunmadığını müəyyən etmiş və bunun Konstitusiyanın tələblərinə uyğun olmadığını bəyan etmişdir. Məhkəmə qərarına əsasən, qanunvericilikdə effektiv müdafiə mexanizmlərinin mövcud olmaması mülkiyyət hüququnun pozulmasına səbəb olur və bu, Rusiya Federasiyası Konstitusiyasının 35-ci maddəsində təsbit olunmuş hüquqlara ziddir.Qərarda həmçinin vurğulanır ki, qanunvericilikdə müvafiq dəyişikliklər həyata keçirilənədək, məhkəmələr şübhəli, təqsirləndirilən və ya mülki cavabdeh olmayan şəxslərin əmlakına həbs qoyulması barədə qərar qəbul edərkən, tədbirin qüvvədə olma müddətini göstərməli və onu ilkin istintaq üçün qanunla müəyyən edilmiş müddət çərçivəsində müəyyən etməlidirlər. Zərurət yarandıqda bu müddət yalnız məhkəmə qərarı ilə uzadıla bilər.Beləliklə, Konstitusiya Məhkəməsi yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu müəyyənləşdirməklə kifayətlənmir, eyni zamanda hüquqi boşluqları müəyyən edir, onları təfsir yolu ilə aradan qaldırır və

hüquq tətbiq edən subyektlər üçün birbaşa tətbiq edilə bilən hüquqi mövqelər və davranış qaydaları formalaşdırır. Bu qərarların hüquqi nəticələri həm normativ, həm də praktiki səviyyədə əhəmiyyətlidir və Konstitusiyanın ali hüquqi qüvvəsinin təmin olunmasında mühüm rol oynayır [14, s. 234-236].

Hüquq elmi diskussiyalarda son dövrlərdə Konstitusiya Məhkəmələrinin yeni praktikası ilə bağlı bir sıra suallar və mübahisələr ortaya çıxmışdır. Bu praktika yalnız normanın Konstitusiyaya uyğunluğunu təsdiqləməklə kifayətlənmir, eyni zamanda həmin normaya ilkin qanunvericilik mətnindən fərqli, daha dərin və geniş konstitusiya-hüquqi məna verməyi ehtiva edir. Belə ki, Konstitusiya Məhkəməsinin qərarlarında hüququ tətbiq edən subyektlər üçün birbaşa və məcburi davranış qaydaları müəyyən edilməsə də, normanın yeni interpretasiyası hüquq sistemində normativ tətbiq baxımından əhəmiyyətli rol oynayır. Rusiya Konstitusiya Məhkəməsinin sədri V.D. Zorkin bu fenomeni belə təsvir edir: “Qanunvericilik müddəaları bəzən o qədər ümumi və qeyri-dəqiq tərtib edilir ki, Konstitusiya Məhkəməsi onların konstitusiya-hüquqi mahiyyətini dəfələrlə təkrar-təkrar müəyyənləşdirməli olur.” [14, s. 236]. Belə qərarlar, mahiyyət etibarilə, cinayət-prosessual qanunun interpretasiya və izah aktları kimi qiymətləndirilir və hüququn tətbiqində praktik göstərişlər rolunu oynayır. Lakin onların hüquq mənbəyi statusu ilə birbaşa əlaqəsi yoxdur və cinayət-prosessual hüququn əsas normativ mənbələri kimi qəbul edilmələri elmi baxımdan məqbul hesab edilmir.

Beləliklə, Konstitusiya Məhkəmələrinin qərarlarının – hətta müəyyən məhdudiyyət və şərtlərlə olsa belə – cinayət-prosessual hüququn normativ mənbələrindən biri kimi tanınması hüquqi dövlət və konstitusional hüququn daxili struktur məntiqindən irəli gələn doktrinal zərurət kimi qiymətləndirilməlidir. Bu zərurət, ilk növbədə, Konstitusiya Məhkəmələrinin yalnız hüquqi mübahisələrin həllinə yönəlmiş fəaliyyət dairəsinə malik olması və onların Konstitusiyaya nəzarət funksiyasını həyata keçirən institusional orqan kimi çıxış etməsi ilə əsaslandırılır. Əgər Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi məcburiyyətə malik müstəqil hüquq mənbəyi kimi tanınması rədd olunarsa, bu, mahiyyət etibarilə Konstitusiyanın ali hüquqi qüvvəsinin və hüquq sistemindəki normativ üstünlüyünün inkarına gətirib çıxarar. Belə yanaşma isə hüquq sisteminin əsas dayaq prinsipləri – hüququn aliliyi, normativ iyerarxiya və konstitusional legitimlik – ilə ziddiyyət təşkil edir. Qeyd etmək lazımdır ki, Konstitusiya Məhkəmələrinin qərarları yalnız hüququn tətbiqinə dair texniki aktlar deyil; onlar hüquqi normaların konstitusion qiymətləndirilməsi vasitəsilə hüququn inkişafına təsir göstərir və hüquq tətbiq edən subyektlər üçün birbaşa hüquqi nəticələr yaradır. Bu baxımdan, onların normativ mənbə kimi tanınması yalnız praktik ehtiyac deyil, həm də konstitusional hüquq nəzəriyyəsinin məntiqi və ayrılmaz tələbi kimi çıxış edir [14,s. 234].

Azərbaycanın hüquq ədəbiyyatında da bu məsələyə dair yanaşmalar mövcuddur. Misal üçün X. R. Seyranov müəllifi olduğu “Məhkəmə presedentləri mülki hüququn mənbəyi kimi: nəzəriyyə və təcrübə” adlı əsərində qeyd etmişdir ki, “Azərbaycan Respublikasının qanunvericilik sistemində məhkəmə fəaliyyətində presedent qərarlardan istifadə edilməsi ilə bağlı hər hansı bir normativ göstərişə rast gəlinmədiyi üçün, ölkədə presedent hüququnun tətbiq edilməsinin öhdəlik xarakteri daşamadığı qənaətinə gəlmək mümkündür. Lakin eyni zamanda, məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinə digər presedent xarakterli qərarı tətbiq etməyi qadağan edən normanın mövcudluğu da müşahidə edilmir. Qanunvericilik sistemində məhkəmə presedentləri və ya digər məhkəmənin presedent xarakterli qərarının başqa oxşar işlər üzrə nəzərə alınması ilə bağlı normativ qeydin olmamasını bu fəslin əvvəlki paraqrafında qeyd edilən əsaslar üzrə Sovet hüquq doktrinasının xüsusiyyətləri ilə də izah etmək mümkündür. Lakin hər bir halda Azərbaycan

Respublikası məhkəmələri tərəfindən digər məhkəmənin oxşar məzmunlu qərarından presedent şəklində istifadə edilməsi həm qanunvericilik baxımından, həm də məhkəmə təcrübəsində istisna olunmur. Başqa sözlə, hakimlərin öz fəaliyyətlərində presedent hüququnun tətbiq etmələri ilə bağlı normativ göstəriş olmasa da, onlar öz təcrübələrində presedent xarakterli qərarlardan (xüsusilə də, Konstitusiya Məhkəməsinin qərarlarına münasibətdə) istifadə edirlər.” [10, 58].

N.H. Şükürov isə “Konstitusiya nəzarəti və ictimai təcrübə” adlı məqaləsində qeyd etmişdir ki, - “Konstitusiya Məhkəməsi Konstitusiyanın özünün müdafiə mexanizmi funksiyasını yerinə yetirir.” [11, s. 219]. Bu mövqe konstitusiya nəzarətinin institusional mahiyyətini və onun hüquqi sistemdəki funksional rolunu aydın şəkildə ifadə edir. Həqiqətən də, Konstitusiya Məhkəməsi yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlayan orqan deyil, eyni zamanda Konstitusiyanın aliliyinin, hüquqi qüvvəsinin və normativ sabitliyinin təminatçısıdır. Bu mənada, onun qərarları konstitusiya mətninin “özünümüdafiə” potensialının reallaşma forması kimi çıxış edir. Konstitusiya Məhkəməsinin qəbul etdiyi aktların hüquqi mənbə kimi tanınması isə, bir tərəfdən, hüquqi dövlətin əsas prinsiplərinin – hüququn aliliyi, normativ iyerarxiya və konstitusional legitimliyin – reallaşdırılmasının zəruri şərtidir. Digər tərəfdən isə, bu, Konstitusiyanın “formal” sənəd olmaqdan çıxaraq normativ təsir gücünə malik ali hüquqi akt kimi fəaliyyət göstərməsini təmin edir. Əgər Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi məcburiyyətə malik normativ aktlar sırasına daxil edilməsi inkar edilərsə, bu, mahiyyət etibarilə Konstitusiyanın özünün müdafiə mexanizmini zəiflətmiş olar və onun ali hüquqi qüvvəsi əksər hallarda sadəcə formal xarakter daşıyar.

Fikrimcə, bu hissədə konseptual çərçivəni dəqiqləşdirmək və mövzunun mahiyyətini aydınlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinin təhlilinə müraciət etmək vacibdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi) IX bəndinə əsasən “Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir.” Həmin maddənin X bəndinə əsasən “Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.” [1].

Lakin Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin (Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar) I bəndinə əsasən Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir: 1) Konstitusiya; 2) referendumla qəbul edilmiş aktlar; 3) qanunlar; 4) fərmanlar; 5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları; 6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. Həmin maddənin II bəndinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir [1]. Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsinin (Normativ hüquqi aktlar) III bəndinə əsasən isə Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir [1].

Şərh edilən normaların məzmunundan da göründüyü kimi, Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsində Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan

Respublikası Konstitusiya Məhkəməsinin qərarının Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malik olduğu qeyd edilsə də, Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsində bu Qərarlar Qanunvericilik sistemini təşkil edən normativ hüquqi aktların siyahısına daxil edilməmişdir.

Bununla belə Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21.12.2010-cu il tarixli, 21-IVKQ nömrəli Konstitusiya Qanununun 1-ci maddəsinə əsasən normativ hüquqi akt – tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (1.0.1), normativ xarakterli aktlar – həmin Konstitusiya Qanununun 4.1-ci maddəsində müəyyən edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (1.0.3), hüquqi akt isə – normativ hüquqi akt, normativ xarakterli akt və ya qeyri-normativ hüquqi aktlardır (1.0.4) [2].

Həmin Konstitusiya Qanununun 4.1.1-ci maddəsinə əsasən, - "Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının normativ xarakterli aktları hesab edilirlər." [2].

Həmin Konstitusiya Qanununun 12.3-cü maddəsinə əsasən isə, -"Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi normativ hüquqi aktın şərhi ilə bağlı qəbul etdiyi qərarında normativ hüquqi aktların kolliziyasını təsdiqləyərsə, həmin kolliziyanı aradan qaldırmaq məqsədi ilə bu Konstitusiya Qanununun 12.1.1-12.1.3-cü maddələrində göstərilən tədbirlər görülməlidir." [2]. Həmçinin həmin Konstitusiya Qanununun 89.2-ci maddəsinə əsasən, -"Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir." [2].

Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" 23.12.2003-cü il tarixli, 561-IIQ nömrəli Qanununun 66-cı maddəsinə əsasən isə, -"Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IX hissəsinə görə Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir.Konstitusiya Məhkəməsinin qərarları qüvvəyə mindikdən sonra şərtsiz icra olunmalıdır. Konstitusiya Məhkəməsinin qərarlarını icra etməyən vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin X hissəsinə görə qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan hesab edilmiş məhkəmə aktları icra edilməməli və müvafiq məhkəmə işlərinə Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yenidən baxılmalıdır.Konstitusiya Məhkəməsinin qərarının qəbul edilməsi üçün əsas təşkil etmiş Azərbaycan Respublikası Konstitusiyasının norması referendum nəticəsində dəyişdirildikdə, həmin

qərar Konstitusiya Məhkəməsi tərəfindən qismən və ya bütövlükdə qüvvədən düşmüş hesab olunur.” [5].

Azərbaycan Respublikasının Qanunvericiliyinin qeyd edilən müddəaları ilə yanaşı onu da vurğulamağı zəruri hesab edirəm ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 10.3-cü maddəsinə əsasən, - “Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun.” [3]. Həmin Məcəllənin 416.2-ci maddəsinə əsasən isə, -“hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.” [3].

Beləliklə, Azərbaycan Respublikasının qanunvericiliyində Konstitusiya Məhkəməsinin qərarları rəsmi olaraq “normativ akt” deyil, “normativ xarakterli akt” kimi qiymətləndirilir. Lakin onların hüquqi sistemdə faktiki rolu çox vaxt birbaşa hüququn mənbəyi kimi çıxış etməsi ilə xarakterizə olunur. Bu yanaşma, ilk növbədə, Konstitusiya Məhkəməsinin verdiyi hüquqi mövqelərin yalnız konkret mübahisənin həlli ilə məhdudlaşmayaraq, ümumilikdə normativ hüququn tətbiqinə yönəldilməsini əks etdirir.Eyni zamanda, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 416.2-ci maddəsinin məzmunundan da görünür ki, ölkənin cinayət-prosessual qanunvericiliyi məhkəməyə presedent hüququnun tətbiqini tamamilə istisna etmir.

Konstitusiya Məhkəməsinin qərarlarının məcburi qüvvəyə malik olması (Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin IX bəndi) və onların icrasının təmin edilməsinin hüquqi məsuliyyət yaratması göstərir ki, bu qərarlar praktiki olaraq qanunvericiliyin tərkib hissəsinə çevrilir. Bundan əlavə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 10.3-cü maddəsinə əsasən, Konstitusiya Məhkəməsinin qərarında verilmiş təfsir cinayət prosesi iştirakçıları üçün məcburidir və bütün məhkəmə orqanları üçün bağlayıcı xarakter daşıyır, bu isə hüquqi müəyyənlik prinsipinin təmin olunmasına xidmət edir.

Hazırda mövcud olan məhkəmə təcrübəsinin təhlili göstərir ki, Konstitusiya Məhkəməsinin qərarları yalnız normativ xarakter daşımaqla kifayətlənmir, həm də məhkəmə təcrübəsində hüququn boşluqlarını dolduraraq, habelə norma kolliziyalarını aradan qaldıraraq hüquqi münasibətlərin tənzimlənməsində həll edici rol oynayır. Misal üçün, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsi inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqini istisna etsə də [4], Konstitusiya Məhkəməsi Plenumunun 02.11.2016-cı il tarixli “İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair” Qərarında bu müddəanın yalnız maddi hüquq normalarına aid olduğu vurğulanmış, prosessual münasibətlərdə isə cinayət-prosessual qanunvericiliyin analogiya üzrə tətbiqinin mümkünlüyü qeyd edilmişdir [6]. Eyni mövqe Konstitusiya Məhkəməsi Plenumunun 18.11.2022-ci il tarixli Qərarda da təsdiq olunmuş, Konstitusiya Məhkəməsi bir daha vurğulamışdır ki, prosessual münasibətlərdə analoji hüquqi mexanizmlərin tətbiqi hüququn aliliyinə və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə xidmət edir [7]. Hətta bu məsələyə dair daha ətraflı hüquqi izah Konstitusiya Məhkəməsi Plenumunun 11.11.2021-ci il tarixli Qərarında verilmiş və həmin Qərarda əlavə olaraq qeyd edilmişdir ki, - “qanunun analogiya üzrə tətbiqi konkret hüquq münasibətlərini tənzimləyən normanın olmamasını və bu hüquq münasibətlərinə oxşar münasibətləri tənzimləyən digər qanun

normasının tətbiqini nəzərdə tutur. Məhz konkret normanın olmaması qanunun analogiya üzrə tətbiqini onun təfsirindən fərqləndirən əsas əlamətdir." [8]. Nəticə etibarı ilə hazırda məhkəmələr həmin Qərarlarla istinad edərək inzibati işlər üzrə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin müvafiq müddəalarını analogiya üzrə tətbiq edirlər.

Oxşar hala son vaxtlar birinci instansiya məhkəmələri tərəfindən icraatlarında olan prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üzrə icraat və cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə verilmiş şikayətlər üzrə icraat ilə bağlı işlər üzrə qəbul edilən qərarlarında istinad etdikləri Konstitusiya Məhkəməsi Palatasının "Bakı Apellyasiya Məhkəməsinin müraciətinə dair" 03.03.2023-cü il tarixli Qərardadında da rast gəlmək olar. Həmin Qərardadda qeyd edilmişdir ki, - "Konstitusiya Məhkəməsinin Palatası səlahiyyəti olmayan prokuror tərəfindən həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimat verilməsi və bu halda məhkəmə tərəfindən təqdimat və əlavə edilmiş sənədlərin geri qaytarılması ilə bağlı qeyd etməyi zəruri bilir ki, bu halda məsələyə mahiyyəti üzrə baxılması Cinayət-Prosessual Məcəlləsinin 447.3, 447.5-447.7-ci maddələrinin tələbləri baxımından mümkünsüz olduğundan, həmin Məcəllənin 448.1.3-cü maddəsində göstərilən qərarlardan (həsdə saxlama müddətinin uzadılması və ya bundan imtina barədə qərar) hər hansı birinin qəbul edilməsi də istisna olunur. Lakin, sadalanan normalarda birbaşa nəzərdə tutulmasa da, səlahiyyəti olmayan prokuror tərəfindən verilmiş təqdimatın (onunla müşayiət olunan vəsatətə) baxılmadan geri qaytarılması cinayət-prosessual qanunvericiliyinin əsas prinsipləri baxımından oxşar vəziyyətlərdə müvafiq prosessual müraciətlərin (məsələn, apellyasiya və yaxud kassasiya şikayətlərinin) baxılmamış saxlanılmasını nəzərdə tutan müddəalarına cavab verən yanaşma kimi qiymətləndirilə bilər." [9]. Bununla yanaşı həmin Qərardadda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının həmin Qərardadının təsviri-əsaslandırıcı hissəsində göstərilən hallar nəzərə alınması qərara alınmışdır. Hazırda da mövcud məhkəmə təcrübəsinin təhlili də onu göstərir ki, məhkəmələr icraatlarında olan işlər üzrə müvafiq təqdimatları baxılmamış saxladıqları zaman əksər hallarda həmin Qərardada istinad edirlər.

Bu praktika göstərir ki, Konstitusiya Məhkəməsinin qərarları hüquqi texniki kateqoriya baxımından "normativ xarakterli akt" adlandırılsa da, əksər hallarda onlar birbaşa hüququn mənbəyi kimi çıxış edir. Bunun səbəbi odur ki, bu qərarlar yalnız mövcud normanın tətbiqini izah etmir, həm də hüququn məzmununu genişləndirir və onun inkişafına yön verir. Nəticədə, konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində formalaşan qərarlar Azərbaycan hüquq sistemində normativ-hüquqi aktlarla eyni funksional təsiri göstərir və hüquqi dövlət prinsipinin təmin olunmasında mühüm rol oynayır.

Konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul edilən qərarların hüquqi mənbə kimi tanınması məsələsinin sistemli və dərindən təhlili tamamlandıqdan sonra, növbəti mərhələdə konstitusiya nəzarətinə müraciət institutunun hüquqi mahiyyəti və onun tətbiq mexanizminin dəqiq anlaşılması zərurəti ön plana çıxır. Bu, həm hüquq nəzəriyyəsi, həm də praktik hüquq tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Konstitusiya nəzarətinə müraciətin hüquqi əsasları, prosedur qaydaları və proses zamanı ortaya çıxan pozuntu hallarının işin mahiyyətinə təsirinin obyektiv və ədalətli qiymətləndirilməsi yalnız hüququn aliliyinin qorunmasına deyil, həm də ədalət prinsiplərinin və hüquqi dövlət konsepsiyasının reallaşmasına xidmət edir.

Konstitusiya nəzarətinin nəticəsində qəbul edilən qərarların hüquqi mənbə statusu məsələsinin sistemli və əhatəli təhlili tamamlandıqdan sonra, növbəti mərhələ kimi konstitusiya nəzarətinə müraciət institutunun hüquqi mahiyyəti və tətbiq mexanizminin dəqiq anlaşılması zərurəti ortaya

çıxır. Bu, həm hüquq nəzəriyyəsi, həm də praktik hüquq tətbiqi üçün böyük əhəmiyyət daşıyır. Konstitusiya nəzarətinə müraciətin hüquqi əsaslarının, prosedur qaydalarının və bu proses zamanı ortaya çıxan pozuntu hallarının işin mahiyyətinə təsirinin ədalətli və obyektiv qiymətləndirilməsi yalnız hüququn aliliyini təmin etməklə kifayətlənmir, eyni zamanda ədalət prinsiplərinin qorunmasına və hüquqi dövlət konsepsiyasının praktik həyata keçirilməsinə xidmət edir.

Müraciət institutunun fəaliyyəti çərçivəsində hüquq pozuntusu faktlarının dəqiq və obyektiv təsviri, həmçinin prosessual qaydalara qəti şəkildə riayət olunması ədalətli mühakimənin əsas şərtlərindən biridir. Bu amillər konstitusiya nəzarətinin effektivliyi ilə birbaşa bağlı olmaqla yanaşı, məhkəmə hakimiyyətinin legitimliyini və vətəndaşların hüquqi müdafiəsinin keyfiyyətini müəyyən edən göstəricilərdən hesab olunur. Nəticə etibarilə, konstitusiya nəzarətinə müraciət mexanizmi hüquqi proseslərin obyektivliyini və şəffaflığını təmin edən mühüm institusional təminat rolunu oynayır və eyni zamanda hüquqi münasibətlərin Konstitusiya prinsipləri ilə uyğunluğunu şərtləndirən əvəzolunmaz vasitə kimi çıxış edir.

Digər tərəfdən, konstitusiya nəzarətinə müraciət prosedurunun hüquqi mahiyyətinin dəqiq anlaşılması, bu institutun institusional funksiyalarının genişləndirilməsi və möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Mexanizmin düzgün tətbiqi hüququn aliliyinin təmin edilməsinə mühüm töhfə verərək, hüquq sisteminin dinamik inkişafına stimul yaradır və hüquq subyektlərinin hüquq və azadlıqlarının effektiv qorunmasını gücləndirir. Bu kontekstdə, konstitusiya nəzarətinə müraciət institutu hüquqi təhlükəsizliyin təmin olunması və normativ-hüquqi sabitliyin möhkəmləndirilməsi üçün əvəzolunmaz institusional vasitə kimi çıxış edir.

Nəticə etibarilə, konstitusiya nəzarətinə müraciətin hüquqi mahiyyəti və tətbiq mexanizmi bir-birindən ayrılmaz surətdə bağlıdır və bu əlaqənin düzgün təşkili hüquqi dövlətin əsas prinsiplərinin qorunması, məhkəmə prosedurlarının şəffaflığı və ədalətli mühakimənin təminatı baxımından mühüm rol oynayır. Bu sahədə aparılan elmi tədqiqatlar və məhkəmə təcrübəsinin təhlili hüquqi proseslərin təkmilləşdirilməsi üçün geniş imkanlar yaradır və konstitusiya nəzarətinin gələcəkdə daha effektiv və məqsədyönlü şəkildə həyata keçirilməsinə zəmin hazırlayır.

Burada əsas hüquqi məsələlərdən biri konstitusiya nəzarətinə müraciət çərçivəsində təkrar baxışın hüquqi əsaslarının dəqiq və sistemli müəyyənləşdirilməsidir. Konkret olaraq, müzakirə predmeti ondan ibarətdir ki, təkrar baxış üçün yalnız ümumi pozuntu faktı kifayət etməlidirmi, yoxsa yalnız hökmün qanunsuzluğuna gətirib çıxaran və işin mahiyyətinə birbaşa təsir göstərən ciddi pozuntu halları əsasında bu prosedur tətbiq olunmalıdır. Məsələn, "İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsində təsbit olunan azadlıq və toxunulmazlıq hüququnun pozulması halları hər zaman işin yenidən araşdırılması və bərpası ilə nəticələnmir, çünki bu cür pozuntular işin əsas mahiyyətinə təsir etməyə və ya prosesin ədalətli nəticəsini təhlükəyə atmağa bilmir.

Buna baxmayaraq, məhkəmə praktikasından görünür ki, yeni ortaya çıxan hallar yalnız yekun hökmün bərpasına təsir göstərmir, eyni zamanda prosesin müxtəlif mərhələlərində qəbul edilmiş müvəqqəti məhkəmə qərarlarına – xüsusən də həbs qətimkan tədbirinin seçilməsinə dair qərarlara – də şamil oluna bilər. Bu isə təkrar baxış institutunun hüquqi mahiyyəti və tətbiq dairəsi ilə bağlı ciddi nəzəri və praktik müzakirələrin aparılmasını zəruri edir.

Nəticə etibarilə, işin bərpasına dair qərarın verilməsi bir sıra faktorlardan asılı olmalıdır. Bunlar arasında cinayət işinin konkret xüsusiyyətləri, Avropa İnsan Hüquqları Konvensiyası ilə qorunan hüquqların pozuntusunun işin mahiyyətinə təsir dərəcəsi və işin mərhələsi – xüsusilə yekun məhkəmə qərarının artıq qəbul olunub-olmaması – əsas rol oynayır. Bu yanaşma yalnız formal

prosedurların yerinə yetirilməsini nəzərdə tutmur, eyni zamanda hüququn aliliyinin təmin olunması, ədalət prinsipinin qorunması və məhkəmə proseslərinin legitimliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. [14, s. 1166]. Belə tənzimləmə həm hüquqi təminatın effektivliyini artırır, həm də vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini gücləndirir, nəticədə hüquqi dövlət prinsiplərinin praktik həyata keçirilməsinə zəmin yaradır.

Konstitusiyaya nəzarət institutu ilə cinayət-prosessual hüquq arasındakı qarşılıqlı münasibət hüquq sistemində harmoniyanın təmin olunması, hüquqi dövlət prinsiplərinin qorunması və insan hüquqlarının effektiv müdafiəsi baxımından həlledici əhəmiyyət kəsb edir. Bu institut yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlamaqla kifayətlənmir, eyni zamanda cinayət-prosessual hüququn institusional strukturlarının və funksional mexanizmlərinin transformasiyasına strateji təsir göstərir [16, s. 219-223]. Konstitusiya nəzarətinin tətbiqi nəticəsində qəbul edilən qərarlar müəyyən hallarda hüquq mənbəyi statusu qazanaraq cinayət prosesinin müxtəlif mərhələlərində hüquqi təminatların möhkəmləndirilməsinə və hüququn dinamik inkişafına təkan verir. Bundan əlavə, konstitusiyaya nəzarət hüquqi metodologiya və interpretasiya baxımından da cinayət-prosessual hüququn formalaşmasında aparıcı rol oynayır, hüququn aliliyinin və normativ iyerarxiyanın qorunmasını təmin edir [17, s. 135-137]. Beləliklə, konstitusiya nəzarətinin effektivliyi yalnız ədalətli mühakimənin və fərdi hüquq və azadlıqların qorunmasını təmin etmir, eyni zamanda hüquq sisteminin konseptual və praktik inkişafı üçün əvəzsiz institusional vasitə rolunu oynayır.

Konstitusiyaya nəzarət institutu ilə cinayət-prosessual hüquq arasındakı qarşılıqlı münasibət hüquq sistemində harmoniyanın qorunması, hüquqi dövlət prinsiplərinin təsirli tətbiqi və insan hüquq və azadlıqlarının effektiv müdafiəsi baxımından əvəzsiz rol oynayır. Konstitusiya nəzarəti yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlayan formal mexanizm kimi çıxış etmir; o, həm də cinayət-prosessual hüququn institusional strukturlarının inkişafına və funksional mexanizmlərinin transformasiyasına strateji təsir göstərən dinamik hüquqi institutdur. Bu institutun fəaliyyəti cinayət prosesinin müxtəlif mərhələlərində hüquqi təminatların möhkəmləndirilməsi, məhkəmə prosedurlarının konstitusional legitimliyinin qorunması və hüququn davamlı, məqsədyönlü və normativ inkişafının təşviqi ilə birbaşa bağlıdır.

Konstitusiya məhkəmələrinin qərarlarının müəyyən şərtlər çərçivəsində hüquq mənbəyi kimi tanınması yalnız hüquq sistemində normativ sabitliyi təmin etmir, eyni zamanda normativ elastiklik prinsipinin qorunmasına da xidmət edir. Bu qərarlar hüququn tətbiqi zamanı konstitusional prinsiplərin həyata keçirilməsinə yönəlmiş interpretativ və metodoloji vasitə rolunu oynayaraq cinayət-prosessual hüququn institusional inkişafına əhəmiyyətli töhfə verir. Nəticə etibarilə, konstitusiyaya nəzarət institutu həm hüququn formalaşmasında, həm də onun tətbiqində normativ iyerarxiyanın qorunması, hüquqi təhlükəsizliyin təmin olunması və hüququn səmərəli həyata keçirilməsi baxımından aparıcı mövqeyə malikdir.

Eyni zamanda, konstitusiya nəzarətinin hüquqi metodologiya və interpretasiya sahəsindəki təsiri cinayət-prosessual hüququn struktur və məzmun elementlərinin yeni konstitusional dəyərlər və standartlar əsasında formalaşmasına şərait yaradır. Bu proses hüququn aliliyinin qorunmasını, hüquq sistemində konstitusional üstünlüklərin təmin edilməsini və insan hüquqları prinsiplərinin praktik tətbiqini əsaslandırır. Konstitusiya nəzarətinin institusional funksiyalarının səmərəli həyata keçirilməsi məhkəmə hakimiyyətinin legitimliyini gücləndirir və hüquq subyektlərinin hüquq və azadlıqlarının effektiv müdafiəsi üçün mühüm təminat rolunu oynayır.

Nəticə etibarilə, konstitusiya nəzarətinin səmərəli həyata keçirilməsi yalnız ədalətli mühakimənin təmin olunması və fərdi hüquq və azadlıqların müdafiəsi baxımından mühüm rol oynamır; o, eyni zamanda hüquq sisteminin konseptual inkişafı, normativ təkmilləşməsi və institusional effektivliyinin təmin edilməsi üçün əvəzsiz hüquqi mexanizm kimi çıxış edir. Konstitusiya nəzarəti hüququn universal dəyərlərə uyğun tətbiqini, normativ-hüquqi sabitliyi və hüquq sisteminin davamlılığınıgücləndirərək hüquqi dövlətin möhkəmləndirilməsinə birbaşa töhfə verir. Bu institut hüquqi prosedurların şəffaflığı və legitimliyinin qorunmasına xidmət edir, hüquq subyektlərinin hüquq və azadlıqlarının səmərəli müdafiəsini təmin edir və nəticədə hüququn tətbiqi ilə bağlı institusional etibarlılığı artırır. Beləliklə, konstitusiya nəzarəti yalnız hüququn aliliyinin qorunmasında deyil, həm də hüquq sisteminin normativ, institusional və funksional inkişafında fundamental rol oynayır. Onun fəaliyyətinin strateji əhəmiyyəti ondadır ki, hüquqi dövlətin prinsipləri, konstitusional prioritetlər və insan hüquqları prinsipləri praktik hüquq tətbiqi vasitəsilə real təsir mexanizmlərinə çevrilir, bu da hüququn dinamik transformasiyasını və sistemin davamlı adaptasiyasını təmin edir.

### Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897

2. Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21.12.2010-cu il tarixli, 21-IVKQ nömrəli Konstitusiya Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/21300

3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46950

4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46960

5. Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" 23.12.2003-cü il tarixli, 561-IIQ nömrəli Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/5404

6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" 02.11.2016-cı il tarixli Qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/34306

7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.1 və 318-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsinə dair" 18.11.2022-ci il tarixli Qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/52863

8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 11.11.2021-ci il tarixli Qərarı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/48604

9. Konstitusiya Məhkəməsi Palatasının "Bakı Apellyasiya Məhkəməsinin müraciətinə dair" 03.03.2023-cü il tarixli Qərardadı. [Elektron resurs]. URL: https://constcourt.gov.az/ru/decision/1344

10. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2011. – 760 s.

11. Rzayev Ə.H. Dövlət idarəetməsi: nəzəriyyə və praktika. – Bakı: Elm, 2021. – 364 s.

12. Seyranov X.R. Məhkəmə presedentləri mülki hüququn mənbəyi kimi: nəzəriyyə və təcrübə. – Bakı: Hüquq Yayın Evi, 2018. – 152 s.

13. Şükürov N.H. Konstitusiya nəzarəti və ictimai təcrübə // Nəqliyyat hüququ: Elmi-nəzəri, təcrübi jurnal. – 2017. – №1. – S. 209-221.

14. Баглай М.В. Конституционное право Российской Федерации: учебник для вузов. – 6-е изд., изм. и доп. – М.: Норма, 2007. – 784 с.

15. Бакулина Л.Т. (отв. ред.) Проблемы теории права и право реализации: учебник. – М.: Статут, 2017. – 384 с. – (Учебник Казанского университета).

16. Головко Л.В. (ред.) Курс уголовного процесса. – 2-е изд., испр. – М.: Статут, 2017. – 1280 с.

17. Darryl K. Brown (Editor), Jenia Iontcheva Turner (Editor), Bettina Weisser (Editor) – The Oxford Handbook of Criminal Process (Oxford Handbooks) – Oxford University Press - March 22, 2019 - 1072 p.

18. Frank Schmalleger and John Feldmeier – American Criminal Procedure Today – Oxford: Oxford University Press – Publication Date - 15 September 2022 - 576 p.

19. Markus D Dubber (Editor), Tatjana Hornle (Editor) – The Oxford Handbook of Criminal Law (Oxford Handbooks) Reprint – Oxford University Press - September 21, 2016- 1232 p.

20. William A. Schabas (Editor) – The Cambridge Companion to International Criminal Law (Cambridge Companions to Law) Reprint Edition – Cambridge University Press - January 7, 2016 - 422 p.

***Məqalə daxil olmuşdur:*** *12 yanvar 2026-cı il*
***Çapa qəbul edilmişdir:*** *06 fevral 2026-cı il*

## References

1. Constitution of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/897 (in Azerbaijani).

2. Constitutional Law of the Republic of Azerbaijan “On Normative Legal Acts” dated 21.12.2010, No. 21-IVKQ. Available at: https://e-qanun.az/framework/21300 (in Azerbaijani).

3. Code of Criminal Procedure of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46950 (in Azerbaijani).

4. Administrative Offenses Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46960 (in Azerbaijani).

5. Law of the Republic of Azerbaijan “On the Constitutional Court” dated 23.12.2003, No. 561-IIQ. Available at: https://e-qanun.az/framework/5404 (in Azerbaijani).

6. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan “On the interpretation of Article 128.1 of the Code of Administrative Offenses of the Republic of Azerbaijan” dated 02.11.2016. Available at: https://e-qanun.az/framework/34306 (in Azerbaijani).

7. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan “On the interpretation of Articles 12.2, 85 and 114.2.3 of the Code of Administrative Offenses of the Republic of Azerbaijan in terms of Articles 65.1 and 318 of the Criminal Procedure Code of the

Republic of Azerbaijan and Part II of Article 127 of the Constitution of the Republic of Azerbaijan" dated 18.11.2022. Available at: https://e-qanun.az/framework/52863 (in Azerbaijani).

8. Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan "On the related interpretation of Articles 132.1.2 and 53 of the Code of Administrative Offenses of the Republic of Azerbaijan" dated 11.11.2021. Available at: https://e-qanun.az/framework/48604 (in Azerbaijani).

9. Decision of the Chamber of the Constitutional Court "On the appeal of the Baku Court of Appeal" dated 03.03.2023. Available at: https://constcourt.gov.az/ru/decision/1344 (in Azerbaijani).

10.. Asgarov Z.A. Constitutional law. Textbook. Baku: Baku University Publ., 2011, 760 p. (in Azerbaijani).

11. Rzayev A.H. Public administration: theory and practice. Baku: Elm Publ., 2021, 364 p. (in Azerbaijani).

12. Seyranov X.R. Court precedents as a source of civil law: theory and practice. Baku: Law Publ., 2018, 152 p. (in Azerbaijani).

13. Shukurov N.H. Constitutional control and public practice // Transport law: Scientific-theoretical, practical journal. 2017. No. 1, pp. 209-221 (in Azerbaijani)..

14. Baglai M.V. Constitutional Law of the Russian Federation: Textbook for Universities. 6th ed., amended and supplemented. Moscow: Norma Publ., 2007, 784 p. (in Russian).

15. Bakulina L.T. (editor) Problems of the Theory of Law and the Law of Implementation: textbook. Moscow: Statut Publ., 2017, 384 p. (Textbook of Kazan University) (in Russian).

16. Golovko L.V. (ed.) Course of criminal procedure. 2nd ed., rev. Moscow: Statute Publ., 2017, 1280 p. (in Russian).

17. Darryl K. Brown (Editor), Jenia Iontcheva Turner (Editor), Bettina Weisser (Editor) – The Oxford Handbook of Criminal Process (Oxford Handbooks). Oxford University Press - March 22, 2019, 1072 p.

18. Frank Schmalleger and John Feldmeier – American Criminal Procedure Today – Oxford: Oxford University Press – Publication Date - 15 September 2022 - 576 p.

19. Markus D Dubber (Editor), Tatjana Hornle (Editor) – The Oxford Handbook of Criminal Law (Oxford Handbooks) Reprint – Oxford University Press - September 21, 2016- 1232 p.

20. William A. Schabas (Editor) – The Cambridge Companion to International Criminal Law (Cambridge Companions to Law) Reprint Edition – Cambridge University Press - January 7, 2016 - 422 p.

***The article was submitted:*** *2026 January 12*
***Accepted for publication:*** *2026 February 06*

**Оруджлу Р.А.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.82.78-97**
**УДК: 343.1**

# Роль конституционного контроля в развитии уголовно-процессуального права: нормативный и институциональный подход

**Аннотация:** Проводится комплексное исследование влияния института конституционного контроля на формирование и развитие нормативной и институциональной структуры уголовно-процессуального права. Целью исследования является научное обоснование значения признания решений Конституционного суда источниками права для укрепления правового государства, обеспечения верховенства права и эффективной защиты прав и свобод человека. Научная новизна работы заключается в том, что конституционный контроль рассматривается не только как формальный механизм проверки нормативных актов на соответствие Конституции, но и как функциональный институт, оказывающий существенное влияние на трансформацию правовой методологии и судебной практики. В исследовании использованы методы сравнительно-правового анализа, нормативно-доктринального исследования и анализа прецедентной практики конституционных судов. Практическая значимость работы состоит в обосновании механизмов согласования процессуальных гарантий уголовного судопроизводства - таких как арест, обыск, право на защиту и презумпция невиновности - с конституционными принципами. В результате делается вывод о том, что конституционный контроль выступает не только стабилизирующим элементом правовой системы, но и механизмом её концептуального и методологического обновления.

**Ключевые слова:** конституционный контроль, уголовно-процессуальное право, правовое государство, источник права, конституционный суд, верховенство закона, правовая легитимность, прецедентное право, правовая трансформация.

***Дата поступления:*** *12 января 2026 г.*
***Дата принятия в печать:*** *06 февраля 2026 г.*

♦ **Оруджлу Рустам Афган оглы** - докторант Центра Судебной Экспертизы Министерства Юстиции Азербайджанской Республики. E-mail: orudzhlu@list.ru